səs

9 iyun 2018-ci il

# Ukraynalı yazıçılar BSU-da olublar




Dünən Bakı Slavyan Universitetində çağdaş Ukrayna ədəbiyyatının tanınmış simaları Vladimir Danilenko və Nikolay Xomiçlə görüş olub. Görüşdən əvvəl qonaqları qəbul edən BSU-nun rektoru, professor Nurlana Əliyeva Azərbaycanla Ukrayna arasında münasibətlərin qədim tarixə malik olduğunu bildirib. Ədəbiyyatın, sözün sərhədsiz olduğunu bildirən rektor Azərbaycanda böyük Ukrayna şairi Taras Şevçonkonun yaradıcılığına daim diqqət yetirildiyini və əsərlərinin dönə-dönə dilimizə çevrildiyini deyib. N.Əliyeva xalqlarımız arasındakı çoxəsrlik yaxın dostluq ənənəsinin bu gün də davam etdiyini, mədəniyyət, təhsil, iqtisadiyyat və digər sahələrdə əməkdaşlığın genişləndiyini qeyd edib. Rektor qeyd edib ki, hazırda universitetdə Ukrayna dilini və ədəbiyyatını öyrənən tələbələrin bu dili mükəmməl öyrənmələri üçün Ukraynanın tanınmış universitetlərindən mütəxəssis müəllimlər dəvət olunur.

BSU-nun elmi işlər üzrə prorektoru, professor Rafiq Novruzov isə BSU-nun Ukraynada fəaliyyət göstərən Azərbaycan mədəniyyət mərkəzlərindən danışıb. O, Ukraynanın Kiyev Milli Linqvistik Universitetində, Poltava İqtisadiyyat və Ticarət Univeritetində, Çerniqov Milli Texnologiya Universitetində Azərbaycan mərkəzlərinin fəaliyyət göstərdiyini, həmin mərkəzlərdə ukraynalı gənclərə Azərbaycan dili və ədəbiyyatının öyrədildiyini bildirib. O, əlavə edib ki, 2008-ci ildə Kiyev Linqivistik Universitetində Ukraynca-Azərbaycanca, Azərbaycanca-Ukraynca danışıq kitabçası, 2014-cü ildə Ukraynanın Azərbaycandakı Səfirliyinin dəstəyi ilə professorlar R.Novruzov və İ.Qasımovun hazırladığı "ukraynalı gənclər üçün Azərbaycan dili" adlı dərs vəsaiti, 2015-ci ildə "Azərbaycan-Ukrayna-rus-ingilis dillərində terminoloji lüğət" nəşr edilib. Bu il isə Ukrayna vətəndaşı İvan Pavliyin "Ukrayna bədii ədəbiyyatının Azərbaycan dilinə tərcüməsinin tarixi problemləri" mövzusunda dissertasiya müdafiə etdiyini qeyd edib.

Qonaqlar, öz növbələrində, BSU-da Ukrayna dilinə və mədəniyyətinə göstərilən diqqəti yüksək qiymətləndiriblər. Sonra ukraynalı yazıçılar BSU-ya gəlmələrinin səbəblərindən danışıblar. Ukraynanın çağdaş ədəbiyyatında öz sözünü demiş yazıçı Vladimir Danilenko "Qürub çağının işığında" və yazıçı Nikolay Xomiç "Sərdabənin sirri" kitabının Azərbaycan dilinə tərcümə olunmasını Azərbaycanda Ukrayna ədəbiyyatına verilən dəyərin göstəricisi kimi dəyərləndiriblər. Kitabların təqdimatının BSU-da geniş auditoriya qarşısında təşkil olunduğuna görə, professor N.Əliyevaya minnətdarlıq ediblər. Vladimir Danilenko qeyd edib ki, müəllifi olduğu "Qürub çağının işığında" adlı kitabda iki romanı və yeddi hekayəsi yer alıb. V. Danilenko kitabının Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Tərcümə Mərkəzi tərəfindən Azərbaycan dilinə yüksək peşəkarlıqla tərcümə olunduğunu diqqətə çatdırıb. Nikolay Xomiç "Sərdabənin sirri" tarixi romanından söz açaraq bildirib ki, bu roman Qərblə və Bizans sivilizasiyaları arasında seçim etmək məcburiyyətində qalan Ukrayna xalqının Kiyev Rus Dövləti zamanından bu günə qədər keçdiyi məşəqqətli yoldan və çəkdiyi müsibətlərdən bəhs edir.



Sonra ukraynalı ədiblər BSU-da ukrayna dili üzrə təhsil alan tələbələrlə görüşüblər. Görüş çərçivəsində Vladimir Danilenkonun və Nikolay Xomiçin kitablarının təqdimatı olub.

**ZÜMRÜD**